14-CÜ CƏNUBİ QAFQAZ MEDİA KONFRANSI

**“Feyk-Nyus”, dezinformasiya və media azadlığı**

10-11 may 2017, Tbilisi, Gürcüstan

# NƏTİCƏLƏR

*Bu sənəd 10-11 may 2016-cı il tarixdə Tbilisidə (Gürcüstan) ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsinin Ofisinin təşkil etdiyi Cənubi Qafqaz ölkələrinin 14-cü illik Media Konfransında Ermənistan, Azərbaycan və Gürcüstandan olan 80-dən artıq jurnalist, hökumət və vətəndaş cəmiyyəti nümayəndələri ilə yanaşı Litva və Rusiya Federasiyasından olan beynəlxalq ekspert və iştirakçıların dəyərləndirmə və tövsiyələrinin xülasəsini təqdim edir.*

*Konfrans zamanı əsas diqqət regionda azad media və ifadə azadlığının üzləşdiyi problemlər, eləcə də “feyk-nyus”(qurama, yalnış xəbər), dezinformasiya və propaqandanın geniş yayıldığı hallarda peşəkarlıq və media azadlığının təkmilləşdirilməsi məqsədi ilə ATƏT-in geniş yayılmış təcrübələrinə yönəlmişdir*

**Biz, konfrans iştirakçıları olaraq razılığa gəlirik:**

1. Müxtəlif informasiya mənbələrinə və fikirlərə maneəsiz çıxış, həmin fikir və məlumatı azad yaymaq imkanlarının mövcudluğu, ictimai debat və fikir mübadilələri apara bilən, hökumət və iqtidar üzərində nəzarət funksiyasını yerinə yetirən plüralist media mühitinin olması Cənubi Qafqazda cəmiyyət və azad media üçün böyük əhəmiyyətə malikdir.
2. Bu gün Cənubi Qafqaz ölkələrində jurnalistika həm dövlət həm də qeyri dövlət nümayəndələrinin səbəb olduğu və geniş yayılmış dezinformasiya (bəzən “yalnış” və ya “feyk nyus” xəbər adlandırılır ) və ənənəvi və sosial mediada yayılan propaqanda tipli xəbərlərin yaratdığı çətinliklərlə üzləşir.
3. Dezinformasiya və propaqanda bir qayda olaraq insanları yayındırmaq, eyni zamanda ictimaiyyətin məlumatlanmaq hüququna, həmçinin ATƏT-in öhdəliklərində və digər beynəlxaq hüquqi təminatlarda nəzərdə tutulan və sərhədlərindən asılı olmayaraq hər növ məlumat və fikir axtarmaq, əldə etmək və yaymaq kimi fərdi hüquqlara müdaxilə etmək məqsədi daşıyır.

4. Məlumat və fikir yaymaq hüququ hakimiyyət qurumlarının "düzgün" hesab etdiyi bəyanatlarla məhdudlaşmır. Bu hüquq eyni zamanda sarsıdıcı, təhqiramiz və narahatçılıq yarada bilən məlumat və fikirlərə də aid edilir.
5. Yuxarıda qeyd edilən müddəa rəsmi və ya dövlət nümayəndələrinin qəsdən və ya diqqətsizlik üzündən yaydığı yalnış bəyanatlara haqq qazandırmır.
6. Dövlətlər xüsusi ilə ənənəvi mediaya tətbiq edilən iqtisadi və digər növ təzyiqlərin fonunda plüralist medianın təşviqi və müdafiəsi məqsədini güdən media azadlığı üçün əlverişli mühitin yaradılması kimi müsbət öhdəlik daşıyır.

**Biz, bütün bunları nəzərə alaraq aşağıdakıları tövsiyə edirik:**

7. Dövlətlər media azadlığına yalnız beynəlxalq hüquqda nəzərdə tutulmuş hallara uyğun olaraq məhdudiyyət tətbiq edə bilər. Bunlara qanunla nəzərdə tutularsa, beynəlxalq hüququn tanıdığı legitim ictimai marağa xidmət edərsə və bu cür maraqların müdafiəsi üçün gərəkli və proporsional olarsa kimi hallar aiddir. Bu məhdudiyyətlər qeyd edilən tələblərə uyğun olduğu halda və ayrı-seçkiliyə, düşmənçiliyə və ya zorakılığa təhrik edən nifrətin təbliğini qadağan etmək məqsədi ilə tətbiq edilə bilər.
8. "Doğru olmayan xəbər" və ya "qeyri-obyektiv məlumat" da daxil olmaqla hər hansı məlumatın yayilmasını qadağan edən qeyri-müəyyən və çoxmənalı fikirlərə əsaslanan ümumi müddəalar media azadlığını məhdudlaşdırmaq üçün əsassızdır, ATƏT və digər beynəlxalq standartlar ilə uyğunsuzluq təşkil edir və bu səbəbdən də tətbiq edilməməlidir.
9. Veb səhifələrin, İP ünvanların və şəbəkə protokollarının dövlət tərəfindən bağlanması qeyri-proporsional tədbir vasitəsidir və bunun tətbiqi yalnız qanunla nəzərdə tutulmuş hallarda, eyni zamanda beynəlxalq səviyyədə tanınmış insan hüquq və azadlıqlarının və ya legitim ictimai maraqların müdafiəsi məqsədi ilə həyata keçirilə bilər. Bu cür tədbirlər proporsional olmalıdır və yalnız az müdaxiləyə yol verən alternativ tədbirlər ictimai marağın müdafiəsində uğursuz olduğu halda istifadə edilməlidir ki, bu zaman lazımi prosessual təminatlara əməl edilməlidir.
10. Dövlət rəsmiləri dezinformasiya və propaqanda olduğunu bildikləri bəyanatları verməməli, dəstəkləməməli, təşviq etməməli və ya yaymamalıdır. Onlar yerli və beynəlxalq hüquqi öhdəliklərə və ictimai

vəzifələrinə uyğun olaraq yaydıqları məlumatın etibarlı və mötəbər olduğunu təmin etməlidir.

11. Dövlətlər Cənubi Qafqazda ümumi ictimai marağa xidmət etmək və jurnalistikada yüksək standartları təmin etmək kimi aydın bir mandat ilə fəaliyyət göstərən güclü, müstəqil və bərabər imkanlara malik ictimaiyyətə xidmət edən medianın mövcudluğunu təmin etməlidir.
12. Dövlətlər mediada müxtəlifliyi təşviq etmək məqsədi ilə digər tədbirlər görməlidir.
13. Dövlətlər media və internet savadlılığı mövzusunu ümumi məktəb kurikulumunun tərkib hissəsinə daxil etməklə və qeyd edilən məsələlər üzrə maarifləndirmə işi aparmaq məqsədi ilə vətəndaş cəmiyyəti və digər tərəfdaşlarla əməkdaşlıq yolu ilə media və internet savadlılığının təşviqi istiqamətində tədbirlər görməlidir.
14. Dövlətlər dezinformasiya və propaqandanın mənfi təsirlərini məhdudlaşdırmaq məqsədi də daxil olmaqla bərabərlik, qeyri-ayrıseçkilik, mədəniyyətlərarası anlaşma və digər demokratik dəyərlərin təşviqi istiqamətində tədbirlər görməlidir.
15. Media və jurnalistlər lazım olduğu təqdirdə medianın spesifik sektorları səviyyəsindən (mətbuatdan gələn şikayətlər üzrə qurumlar) və ya fərdi media qurumları səviyyəsindən (ombudsmanlar) asılı olmayaraq xəbərlərin hazırlanmasında dəqiqlik və səhv məlumatın düzəldilməsinə imkan verən və ya mediada dəqiq olmayan məlumata cavab vermək imkanlarını özündə əks etdirən özünütənzimləmənin təsirli sistemlərinin tətbiqinə dəstək verməlidir.
16. Media qurumları cəmiyyətdə nəzarət funksiyalarına müvafiq olaraq xüsusi ilə münaqişə, seçki və ictimai maraqlara təsir edən məsələlərin müzakirələri zamanı hazırlanan materiallara ciddi araşdırılmış dezinformasiya və propaqanda hallarını daxil etməlidir.
17. ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsinin Ofisi Cənubi Qafqazda dezinformasiya və propaqanda hallarının demokratiya, media azadlığı, jurnalistika və vətəndaş cəmiyyətinə təsirini daha yaxşı anlamaq və bu cür hallara qarşı müvafiq tədbirlərin görülməsi məqsədi ilə birgə və şəffaf təşəbbüslərə dəstək verməlidir.